# Biz birlikdə güclüyük!

## Vaksin tədqiqatını ÜST dəstəkləyir

Məlum olduğu kimi, ötən ayın 11-də Rusiya Prezidenti Vladimir Putin elan etmişdi ki, koronavirus vaksini onun ölkəsində qeydiyyatdan keçmişdir. Dünyada ilk koronavirus vaksini adlandırdığı "Sputnik V" bütün zəruri yoxlamalardan keçmiş, onun effektivliyi və davamlı immunitet yaratdığı təsdiqlənmişdir. Həmçinin Putinin verdiyi məlumatda onun qızlarından biri COVİD-19-dan peyvəndlənmişdir. Rusiya Səhiyyə Nazirliyi -vaksin qeydiyyata alındıqdan sonra aparılan tədqiqat işlərinin ilin sonunadək başa çatacağını bəyan etmişdir.

Lakin bu xəbər dünya tibb ictimaiyyətində heç də xoş təəssurat yaratmamışdır. Məsələn, Almaniyanın Səhiyyə naziri Yens Şpan bildirmişdir ki, COVİD-19-a qarşı rus vaksini kifayət qədər klinik sınaqdan keçirilməmişdir. Onun fikrincə effektivlik vaksin haqqında verilən məlumatlara əsaslanmalıdır. Vaksin kifayət qədər testdən keçirilməmişdir. Şpan bildirmişdir ki, insanların vaksinə güvənməsi üçün lazimi araşdırma və testləşdirmə aparılmalı, nəticələr dərc edilməlidir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) da Rusiya vaksininə ehtiyatla yanaşır. ÜST nümayəndələrinin fikrincə yeni preparatın təhlükəsiz olması və effektivliyi barədə bütün məlumatlar diqqətlə yoxlanılmalıdır.

Vaksinin hazırlanmasında ayrı-ayrı ölkələrin mütəxəssisləri əməkdaşlıq edirlər. Tədqiqat işlərini ÜST dəstəkləyir. Onu da qeyd etmək lazımdır ki, ABŞ bu təşkilatın sıralarında fəaliyyətini dayandırmışdır və vaksinin hazırlanması və yayılması naminə beynəlxalq səylərdə iştirak etməkdən başını qaçırır. Məlumat üçün qeyd edək ki, ÜST-ün dəstəklədiyi doqquz vaksin-namizədin üçü ABŞ-a məxsusdur.

*"Azərbaycan"*

## Vaksinin hazırlanması məqsədi ilə

UNİCEF (BMT-nin Uşaq Fondu), xüsusən COVAX alyansında-koronavirus əleyhinə vaksinlərin işlənməsi və hazırlanması üzrə beynəlxalq əməkdaşlıq proqramında iştirakını bildirən 80 zəngin ölkə tərəfindən dərmanın tədarükündə koordinator olaraq COVİD-19-a qarşı çıxış edəcək.

Fondun mütəxəssisləri hesab edirlər ki, sınaq müddətində olan bir neçə preparat kifayət qədər "ümid verir".

UNİCEF dünyada vaksin tədarük edən ən böyük təşkilatdır. Fond hər il planlı peyvəndin vurulması, həm də xəstəliklərin və epidemiyaların yayılmasına qarşı mübarizə məqsədilə 100 ölkə adından iki milyarddan artıq doza vaksin tədarük edir.

Fondun icraçı direktoru Henriyetta For deyib: "Bu, COVİD-19 pandemiyası ilə mübarizə üzrə hökümətlər, istehsalçılar və digər ortaqlar arasında aparılan çoxtərəfli əməkdaşlıqdır. UNİCEF-in hamını vaksinlə təmin etmək üçün kollektiv cəhdlərə töhfəsi-tədarük sahəsində mövcud imkanlarımızdır. Bu yolla, dərman hazır olduğu zaman onun bütün ölkələr tərəfindən alına biləcəyindən əmin ola bilərik.

Koronavirusa qarşı mübarizə göstərilən cəhdləri nəzərə alaraq 2021-ci ildə Uşaq Fondu tərəfindən vaksinlərin satınalmaların və tədarükünün həcminin iki dəfə artacağı gözlənilir.

COVAX alyansı Ümumdünya Səhiyyə Təşkilatının himayəsində COVİD-19 əleyhinə vaksinin hazırlanması məqsədilə yaradılıb.

## Yoluxmalar məsuliyyətsizlikdən yaranır

***Ölkəmizdə ilk dəfə Bakıda seroloji testlər keçirilmişdir. Bu testlərin bu həftə başa çatması güman edilir. Məlumata görə, 1000 dən artıq könüllü test edilib və onların qan zərdabında virus əleyhinə anticisimlərin yaranıb-yaranmadığı aşkar ediləcək. Seroloji testlər proqnostik əhəmiyyət daşıyır. Bu testlər əhalinin neçə faizinin bu xəstəliyi keçirməsini öyrənməyə imkan verəcək. Seroloji testlər nəticəsində əhalinin yarıdan çoxunda anticismlərin yaranmasının aşkar edilməsi karantin rejimində məhdudiyyətlərin ləğv olunması üçün əsas verəcək. Nümunə götürülənlərin az qismində anticismlərin aşkar edilməsi karantin rejimində sərtləşdirməyə ehtiyyac olduğunu ortaya çıxaracaq.***

***Bu həftə Gəncə və Sumqayıt şəhərlərində də seroloji testlərin aparılmasına başlanılıb.***

***Hər iki şəhərdə təsadüfi seçilmiş könüllülərdən 100-ə yaxın nümunə alınıb.***

***Şəhər sakinləri testlərin aparılmasını anlayışla qarşılayır.***



Pandemiyaya qarşı mübarizə məqsədilə ölkəmizdə martın əvvəlindən başlayan karantin rejimi mərhələ ilə yumşaldılır. Aprel ayının sonundakı yumşaldılmadan sonra insanların məsuliyyətsizliyi, yaşayış yerlərini tərk edərək yoluxmalara səbəb olmaqla qaydalara əməl edilməməsi yenidən sərt karantin rejimini zəruri etdi. Bundan sonra yoluxmaların sayının artdığını görən insanlar artıq sosial məsafə saxlanılması, maska taxılması və gigiyenik qaydalara əməl edilməsi kimi tələblərə ciddi yanaşdılar. İnsanların toplaşa biləcəyi ictimai yerlərdə tibbi maskalardan istifadəyə üstünlük verilməsi nəticəsində yoluxmalar azalmağa başladı və bundan sonra sərt karantin rejimi yumşaldıldI. Həmin dövrə qədər dövlət və hökumət tərəfindən görülən qabaqlayıcı tədbirlər, xəstələrin müalicəsi ilə bağlı atılan addımlar nəticəsiz qala bilməzdi. Prezident çıxışlarında dəfələrlə bildirib ki, birinci məsələ insanların sağlamlığıdır. Onun qeyd etdiyi kimi "Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarsa, - qeyd etməliyəm ki, son günlər biz bu məsuliyyəti doğruddan da görürük, hiss edirik, bu, real nəticədə öz əksini tapır, - hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir".

Hazırda dünyada gedən araşdırmalar, təqiqatlar, peyvəndlər üzərində işin aparılması ümidverici siqnallar verir. Bir neçə şirkətlə COVİD-19-a qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparılır. Azərbaycan bu sahədə də peyvəndi əldə edən birinci ölkələr sırasında olacaqdır. Çünki ölkəmizdə artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar işə başlanıb. Ancaq burada əsas şərt peyvəndin bütün sınaq mərhələlərindən keçməsidir. İstənilən yeni peyvənd bir neçə mərhələdən keçir və yalnız bundan sonra bazara çıxarılır, insanların vaksinasiyası üçün istifadə olunur. Dövlət başçısı bununla bağlı dedi: "Ona görə bütün mərhələlər, şirkətlərin apardığı bütün araşdırmalar öz nəticəsini verəndən, bütün sınaq testləri və beynəlxalq sertifikatlaşdırma aparılandan sonra biz bu peyvəndi ölkəmizə gətirəcəyik.

...Əgər müsbət dinamika davam edərsə və xəstələrin sayında artım olmazsa, onda əminəm ki, bundan sonra da yumşalma tədbirləri görüləcəkdir. Çünki hazırda ölkəmizdə hər gün 100-dən 200-ə qədər insan yoluxur və əvvəlki aylarla müqayisədə bu, əlbəttə ki, daha yaxşı nəticədir. Ancaq vəziyyəti daim nəzarət altında saxlamaq üçün həm gündəlik monitorinq aparılır və aparılacaqdır, eyni zamanda, yumşalma addımları elə atılmalıdır ki, xəstələrin sayı kəskin artmasın".

Prezident, həmçinin təəssüflə qeyd etdi ki, bu gün hələ də vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar da mövcuddur və qaydaların kobudcasına pozulması halları da vardır. Bununla bağlı fikir söyləyən dövlət başçımız dedi: "Hesab edirəm ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək".

Ölkəmizdə həqiqətən də COVİD-19-a qarşı mübarizə tədbirləri çərçivəsində görülmüş bütün işlər bir məqsəd güdür ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq və buna da nail oluruq. COVİD-lə bağlı ölkəmizdə əldə edilmiş nəticələr doğrudan da çox dəyərlidir. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə 2020-ci il avqustun 5-dən etibarən sərtləşdirilmiş xüsusi karantin zonasına daxil olan şəhər və rayonlarda insanların yaşayış yerini və olduğu yeri tərk etməsi sistemi ləvğ olundu və bununla insanlara sərbəst evdən çıxmağa icazə verildi.

Ötən həftə Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə ölkəmizdə koronavirus infeksiyasının yayılmasi məhdudlaşdığından və yoluxma hallarının sayında azalma olduğundan yenə bəzi məhdudiyyətlər aradan qaldırıldı və yumşalmalar təmin edildi. Operativ Qərargahın ötən həftə verilən məlumatına görə, sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci ilin sentyabr ayının 8-dən bir sıra sahələr üzrə yumşalma tədbirləri həyata keçirildi. Belə ki, indiyədək ictimai iaşə müəssisələrində müştəriyə ancaq açıq havada və saat $22^{00}$-dək xidmət göstərilirdisə, müvafiq karantin qaydalarına riayət olunmaqla və "Koronavirus (COVİD-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" qərarda nəzərdə tutulmuş tələblər nəzərə alınmaqla, saat 00:00-a qədər ictimai iaşə obyektlərinin daxilində xidmət göstərilməsinə icazə verildi. Şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla, rayonlara gediş-gəlişlə əlaqədar tədbiq olunmuş məhdudiyyətlər aradan qaldırıldı. Həmçinin təhsil müəssisələrinin, 7 aydan bəri işi dayandırılan bağçaların fəaliyyətinə sentyabrın 15-dən icazə verildi.

"Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Nazirlər Kabinetinin 2020-ci il 29 avqust tarixli qərarında dəyişiklik edildi. Dəyişikliyə əsasən Bakı, Sumqayıt və Abşeron rayonunda fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində, 2020-ci il oktyabrın 1-dən, ölkənin digər şəhər və rayonlarında fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində isə 2020-ci il sentyabrın 15-dən fəaliyyətə icazə verilir. Eyni zamanda, bu müddətdə bağça tərbiyəçiləri və texniki işçilər bağçaların yeni qaydalarla açılması və idarə edilməsinə dair təlimatlandırılacaq, daha çox məşğələlərə üstünlük veriləcək ki, uşaqların bir-biri ilə çox yaxın təmasına şərait yaranmasın. Qərarda göstərildiyi kimi uşaq bağçalarının açılması zamanı müvafiq sanitar-gigiyenik qaydaların təmin edilməsi vacib şərtdir. Həmçinin ümumitəhsil məktəblərində mərhələlər üzrə təlim-tərbiyə işlərinə başlanması karantin rejminin tələblərinə uyğun ciddi vəzifələr qarşıya qoyulur. Məktəblərdə sanitar-gigiyenik tələblərin gözlənilməsi və uyğun şəraitdə bu müəssisələrin fəaliyyəti böyük məsuliyyət tələb edir.

Bütün bu tədbirlər, qadağalar, məhdudiyyətlər insanların virusa yoluxmasının qarşısını almaq üçündür. Yeni qərara əsasən bir sıra məhdudiyyətlərin aradan qaldırılması hələ karantin rejiminin bitməsi demək deyil və qəbul edilən bu qərar noyabr ayına qədər qüvvədədir. İnsanların məsuliyyətsizliyi səbəbindən hazırda əldə edilən dinamikanı qoruyub saxlamaq mümkün olmasa noyabra qədər yoluxmaların sayı kəskin artsa, təbii ki, yenidən sərt karantin rejiminin tədbiq edilməsi qaçılmaz olacaq. Yoluxmaların sayının artmaması hər bir ölkə vətəndaşının məsuliyyətindən asılıdır.

**Cavanşir MƏLİKOV,**
**Qəbələ RMX-nın PHŞ-ın direktor müavini.**